

Azərbaycan dünyaya günəş kimi doğacaq.
*Heydər ƏLİYEV*

## *Xalqın sözü haqq sözüdür*

# LERİK

№ 22-23 (571-572) 27 oktyabr 2018-ci il Qəzet 1937-ci ildən çıxır Qiyməti 40 qəpik

# Prezident İlham Əliyevin Lerik rayonuna səfəri

## Ulu öndərin xatirəsinə ehtiram



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lerik rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Lerik şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri qoydu.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov Prezident İlham Əliyevə son dövrlərdə rayonda həyata keçirilən sosial-iqtisadi layihələr barədə məlumat verdi.

## Piran-Hamarat-Vijaker avtomobil yolu 9100 nəfərin yaşadığı 28 yaşayış məntəqəsini birləşdirir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lerik rayonunun Piran-Hamarat-Vijaker avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 15 il ərzində Azərbaycanda yüksək sürətli və dayanıqlı sosial-iqtisadi inkişafa nail olunub. Sosial-iqtisadi islahatların vacib tərkib hissələrindən biri də yol infrastrukturunun müasirləşdirilməsi, bu sahədə dünyanın mütərəqqi təcrübəsini tətbiq edilməsidir. Dövlətimizin başçısının sərəncam və tapşırıqlarına uyğun olaraq, ölkəmizin əsas magistral yolları qısa müddətə və müasir səviyyədə yenidən qurulub. Bundan sonra diqqət kənd və qəsəbələri birləşdirən yolların yenilənməsinə yönəlib. Prezident İlham Əliyevin diqqəti sayəsində indi ölkəmizdə kənd yollarının müasirləşdirilməsi, əvvəllər yol olmayan kənd və qəsəbələrə yüksək səviyyədə yolların çəkilməsi geniş vüsət alıb. Bu cür layihələrin miqyası və coğrafiyası ildən-ilə daha da genişlənir. Bunu Lerik rayonunun Piran-Hamarat-Vijaker avtomobil yolunun yenidən qurulması da aydın nümayiş etdirir. Belə sosial layihələr kənd və qəsəbələrin sakinlərinin həyatına birbaşa təsir edir, onların istehsal etdiyi məhsulların alıcılara tez və rahat şəkildə çatdırılmasına imkan verir. Bununla yanaşı, yeni yolların inşası bölgələrimizin turizm potensialının artırılmasına və turist axının təmin edilməsinə geniş imkanlar yaradır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına Piran-Hamarat-Vijaker avtomobil yolunda aparılan yenidənqurma işləri ilə bağlı məlumat verdi.

Bu avtomobil yolunun tikintisinə Prezident İlham Əliyevin bu il avqustun 18-də imzaladığı Sərəncama əsasən dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 11,3 milyon manat ayrılıb. Yol 9100 nəfərin yaşadığı 28 yaşayış məntəqəsini birləşdirir. Ümumi uzunluğu 26 kilometr olan yol 4-cü texniki dərəcəyə aiddir. İki zolaqlı yolun hərəkət hissəsinin eni 6 metrdir. Layihənin icrası çərçivəsində suötürücü borular, yol nişanları və göstərici lövhələr quraşdırılıb, yol-cizgi xətləri çəkilib. Bir sözlə, yol müasir səviyyədə, texnoloji ardıcıllığa uyğun və bütün tələblərə cavab verməklə yenidən qurulub.

Dövlətimizin başçısına Lerik rayonunun Noda-Şingədulan-Xanagah avtomobil yolunun tikintisi barədə də məlumat verildi.

Otuz min nəfərin yaşadığı və 50 yaşayış məntəqəsini birləşdirən bu avtomobil yolunun tikintisi üçün Prezident İlham Əliyevin 2013-cü ildə imzaladığı Sərəncamla Lerik Rayon İcra Hakimiyyətinə ilkin olaraq 2 milyon manat, 2014-cü ildə imzalanan Sərəncamla isə əlavə olaraq 7 milyon manat ayrılıb. 2016-cı ildə imzalanan digər Sərəncama əsasən isə yolun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 6,6 milyon manat vəsait ayrılıb və yolun tikintisi başa çatdırılıb.

Qeyd edildi ki, ümumi uzunluğu 36 kilometr, eni 6 metr olan yol 4-cü texniki dərəcəyə aiddir və ikizolaqlıdır. Yolun inşası zamanı müxtəlif diametrli suötürücü borular tikilib, iki körpü keçidi inşa olunub. Bu yolun tikilməsi bölgədə sərnişin və yük daşınmasını xeyli yaxşılaşdırmağa imkan verəcək. Həmçinin sözügedən avtomobil yolunun tikintisi yerli və xarici turistlərin ərazidə yerləşən istirahət mərkəzləri və yerli tarixi mədəniyyət abidələri ilə də tanış olmalarına şərait yaradacaq.



Prezident İlham Əliyev yeni yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycanda aparılan dövlət siyasətinin mərkəzində vətəndaşların sosial məsələlərinin həlli dayanır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Lerik şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması" layihəsinin icrasının yekunlaşması münasibətilə keçirilən mərasimdə iştirak edib.**

**Prezident İlham Əliyev əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.**

**Dövlətimizin başçısı görüşdə çıxış etdi.**

### Prezident İlham Əliyevin çıxışı



-Bu gün yenidən Lerik rayonundayam, çox şadam ki, sizinlə görüşürəm. Bu, mənim Prezident kimi Lerik rayonuna dördüncü səfərimdir. Əvvəlki illərdə Lerik rayonunun inkişafı ilə bağlı bir çox önəmli qərarlar verildi. Bu qərarların icrası nəticəsində rayonun inkişafı sürətlə getməyə başladı. Əlbəttə, ilk növbədə, biz Lənkəran-Lerik yolunun çəkilişi ilə məşğul olduq. 2005-ci ildə müvafiq göstəriş verilmişdi və yol çəkildi. Əvvəllər də yol olub, amma çox bərbad vəziyyətdə idi və yolun çəkilişindən sonra Lerikdə inkişaf daha da sürətlə getməyə başladı. Bu ilin yayında mənə məlumat verildi ki, yol artıq sıradan çıxıb və Prezidentin ehtiyat fondundan 5 milyon manat vəsait ayrıldı və yol yenidən çəkilməyə başlanmışdır. Qalan vəsait də Dövlət İnvestisiya Proqramından ayrılacaq ki, Lənkəran-Lerik yolu ən yüksək standartlara cavab versin. Deyə bilərəm ki, yol bu gün də yaxşı vəziyyətdədir, ancaq daha yaxşı vəziyyətdə olacaq.

Bildiyiniz kimi, sovet vaxtında Lerikdə qazlaşdırma aparılmamışdı. Lerik şəhərinin təbii qazla təmin edilməsi üçün müvafiq göstəriş verildi və qaz xətti çəkildi. Bu gün mənə verilən məlumata görə, Lerik rayonunda qazlaşdırma 36 faiz səviyyəsindədir. Rayonun relyefini, dağlarını nəzərə alsaq, hesab edirəm ki, bu, yaxşı göstəricidir. İmkan daxilində Lerik rayonunun qazlaşdırılması ilə bağlı əlavə addımlar atılacaqdır.

Bu gün Lerikdə 16 meqavat gücündə yeni elektrik stansiyasının açılışı nəzərdə tutulur. Beləliklə, bu enerji ümumi sistemə verilərkən nəinki Lerik rayonunun tələbatını, eyni zamanda, bütün cənub zonasının enerji təsərrüfatının dayanıqlığını təmin edəcək. Əlbəttə ki, biz, ilk növbədə, Lerik rayonunu etibarlı enerji mənbəyi ilə təmin edəcəyik.

Bu gün biz artıq Lerik şəhərinin içməli su ilə təminatını qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik etmək istəyirəm. Artıq bu layihə icra edildi. Onun icrası üçün çox böyük vəsait ayrıldı və biz buna nail ola bilmişik. İçməli su insan sağlamlığı üçün əsas şərtdir və bundan sonra vətəndaşlar təmiz, ən yüksək standartlara cavab verən içməli su ilə təmin olunacaqlar.

Lerik uzunömürlülər diyarıdır, burada insanlar çox sağlamdırlar. Dünya miqyasında Lerik haqqında kifayət qədər məlumat var. Lerikdə Uzunömürlülər Muzeyi də var. Mən səfərlərimin birində muzeylə tanış olmuşam. Ancaq içməli su layihəsi icra olunandan sonra insanların sağlamlığı daha da yaxşı olacaq.

Bu əsas infrastruktur məsələlərinin həlli göstərir ki, Azərbaycanın bütün bölgələrində, bütün rayonlarında sürətlə iş gedir. Lerik Azərbaycanın ən ucqar rayonlarından biridir. Həm dağlıq ərazidir, həm əsas magistral yollardan uzaqdır. Amma buna baxmayaraq, burada həyat qaynayır, inkişaf gedir, rayonun sosial-iqtisadi göstəriciləri də yaxşıdır. Burada yaradılan müasir infrastruktur insanlara xidmət göstərir və rayonun gələcək iqtisadi, sosial inkişafını təmin edir.

Biz, eyni zamanda, Lerik rayonunda sosial məsələlərin həlli ilə ciddi məşğul olmuşuq. Rayonda 50-dən çox məktəb təmir olunub və ya yenidən tikilib. Mədəniyyət Mərkəzi yaradılıb, mərkəzi rayon xəstəxanası əsaslı şəkildə təmir olunub və müasir avadanlıqla təchiz edilib. Yəni, sosial infrastruktur, elektrik xətləri, qazlaşdırma, su xətləri, yollar – bütün bunlar reallıqdır. Bu gün mən buraya gələrkən yeni kənd yolunun açılışını etdik. Uzunluğu 20 kilometrdən çox olan, bir neçə kəndi birləşdirən, 11 min əhaliyə xidmət göstərən yeni kənd yolu açılıb. Kənd yollarının yenidən qurulması baxımından Lerik Azərbaycanda ən qabaqcıl yerlərdədir. Mənə verilən məlumata görə, son illərdə görülən işlər nəticəsində Lerik rayonunun kəndlərinin 88 faizi müasir yollarla əhatə edilib və yeni layihə, - o da təqribən uzunluğu 20 kilometrdən çox olan kənd yolu layihəsi, - gələn ilin Dövlət İnvestisiya Proqramında nəzərdə tutulub və gələn il biz o yolu da tikəcəyik, vətəndaşların sərəncamına verəcəyik.







Bütün bunları biz regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları çərçivəsində həll etmişik. Bildiyiniz kimi, bu il üçüncü Dövlət Proqramının icrası başa çatır. Proqram artıqlaması ilə icra edilib, biz bunu Lerik rayonunun timsalında görürük. Növbəti illər üçün yeni proqram hazırlanır və indi bölgələrdən təkliflər daxil olur. Mən Lerik ictimaiyyətindən də xahiş edirəm ki, onlar da təklifləri göndərsinlər. Hökumətdə bu proqrama baxılacaq, iqtisadi və sosial məsələlərin həlli növbəti illərdə təmin ediləcəkdir.

Bütövlükdə ölkəmizdə - bütün bölgələrdə, bütün rayonlarda inkişaf sürətlə gedir. Ölkəmizin bu uğurlu inkişafı əlbəttə ki, xalqımızı da sevindirir, Azərbaycanın beynəlxalq nüfuzu, bizim gücümüz artır və iqtisadi sahədə aparılmış düzgün siyasət öz bəhrəsini verir. Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır. Biz iqtisadi baxımdan heç kimdən asılı deyilik, biz özümüz öz taleyimizin sahibiyik. Güclü iqtisadiyyat, düşünülmüş iqtisadi siyasət, maliyyə imkanlarımızın genişləndirilməsi imkan verir ki, bütün bölgələrdə, ən ucqar yerlərdə gözəl layihələr icra edilsin. Bu gün Lerikdə açılacaq 16 meqavat gücündə yeni elektrik stansiyası özlüyündə böyük bir infrastruktur layihəsidir. İçməli su, qazlaşdırma – bütün bunları biz öz hesabımıza edirik. Heç kimdən yardım, heç kimdən kredit almadan. İndi kreditlərə də ehtiyac qalmır. Düzdür, biz indi bəzi kreditləri alırıq, ancaq o proses də demək olar ki, dayandırıldı. Biz özümüz bəzi xarici ölkələrə kreditlər veririk və bundan faiz qazanırıq. Yəni, bu gün Azərbaycan, sözün əsl mənasında, öz sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf bütün bölgələrdə özünü büruzə verir, o cümlədən Lerik rayonunda.

Qeyd etdiyim kimi, Lerikə dördüncü dəfə səfər edirəm və bundan sonra da səfərlər olacaq. Əminəm ki, bu gün verilən tapşırıqlar, qərarlar gələcəkdə gözəl nəticələrə gətirib çıxaracaqdır. Lerikin gələcək iqtisadi və sosial inkişafı ilə bağlı əlavə addımlar atılacaq, sərəncam imzalanacaq. Bilirəm, kənd yollarının tikintisi ilə bağlı layihələr hələ ki, gündəlikdədir. Eyni zamanda, məktəblərin tikintisi, ev təsərrüfatının yenidən qurulması ilə bağlı layihələr olacaq. Ona görə bir daha demək istəyirəm ki, sizi narahat edən məsələlər məruzə edilsin və müvafiq göstərişlər veriləcək. Bu günə qədər biz bu yolla getmişik və bu gün gözəl nəticələrə çatmışıq.

Sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

**Davamı səh. 2-də**

# Prezident İlham Əliyevin Lerik rayonuna səfəri

## Azərbaycanda aparılan dövlət siyasətinin mərkəzində vətəndaşların sosial məsələlərinin həlli dayanır



Əvvəli səh. 1-də

Sonra "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə Prezident İlham Əliyevə layihə haqqında məlumat verdi.

Bildirildi ki, bu layihə çərçivəsində Lerik şəhərində içməli su şəbəkəsinin və sutəmizləyici qurğunun, çirkab suların şəhər ərazisindən kənarlaşdırılması üçün kanalizasiya şəbəkəsinin və çirkab sutəmizləyici qurğunun tikintisi nəzərdə tutulub. Layihə çərçivəsində tikinti işlərinə 2011-ci ildən başlanılıb. Lerik şəhər əhalisinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə Zuvandçay çayı üzərində sugötürücü qurğu inşa edilib. Sugötürücü qurğudan suyun öz axımı ilə şəhər ərazisindəki sutəmizləyici qurğuya ötürülməsi üçün 17,49 kilometrlik magistral xətt çəkilib. Yay aylarında Zuvandçay çayında suyun azalması nəzərə alınaraq, əlavə olaraq Nisliçay çayı üzərində sugötürücü qurğu inşa edilib. Nisliçay çayından götürülən sular nasos stansiyası vasitəsilə uzunluğu 90 poqonmetr olan təzyiqli boru ilə Zuvandçay çayından Lerik şəhərindəki təmizləyici qurğuya çəkilən magistral su xəttinə ötürüləcək. Sugötürücü qurğulardan qəbul edilərək magistral su xətti ilə saniyədə ötürülən 20,2 litr suyun təmizlənməsi üçün şəhər ərazisində gündəlik gücü 2,6 min kubmetr olan içməli sutəmizləyici qurğu kompleksi inşa edilib. Lerik şəhəri ərazisində içməli suyun yığılması və paylanması məqsədilə tutumu 1500 kubmetr olan 4 su anbarı tikilib. Şəhərin yüksəklikdə yerləşən hissəsindəki evlərə içməli suyun nəqli üçün tutumu 500 kubmetr olan anbarda məhsuldarlığı saniyədə 1,54 litr olan iki nasos quraşdırılıb. Su anbarlarından Lerik şəhər əhalisinə içməli suyun verilməsi üçün uzunluğu 55 min 55 poqonmetr olan içməli su şəbəkəsi tikilib, 1821 ev su sayğacı ilə təmin edilərək bu şəbəkələrə qoşulub.

Diqqətə çatdırıldı ki, çirkab suların şəhər ərazisindən toplanaraq təmizləyici qurğuya ötürülməsi üçün uzunluğu 1579 poqonmetr olan kanalizasiya kollektor xətti, uzunluğu 1409 poqonmetr olan təzyiqli çirkab su xətti, eləcə də uzunluğu 41 min 289 poqonmetr olan çirkab su şəbəkəsi çəkilib. Kanalizasiya şəbəkəsi üzərində 1296 baxış quyusu və gündəlik gücü 1530 kubmetr olan təmizləyici qurğu inşa edilib.

Məlumat verildi ki, Lerik şəhərinin ilk su təchizatı sistemi 1968-ci ildə yaradılıb. Şəhərin yalnız 50 faizi mərkəzləşdirilmiş qaydada fasiləli rejimlə içməli su ilə təmin edilirdi. Ümumiyyətlə Lerikdə kanalizasiya şəbəkəsi olmayıb. Bu cür layihələrin icrası ölkəmizdə sosial siyasətin uğurla həyata keçirildiyinin əyani göstəricisidir. Bu işlər bir daha sübut edir ki, vətəndaşların sosial məsələlərinin həlli Azərbaycanda aparılan dövlət siyasətinin mərkəzində dayanır və bu istiqamətdə icra olunan layihələr davamlıdır.

Prezident İlham Əliyev Lerik şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.

Sonda xatirə şəkli çəkdirildi.

## Rayondakı elektrik stansiyası 75 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lerik rayonunda gücü 16,5 MVt olan elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak edib.

"Azərenerji" QSC-nin sədri Baba Rzayev Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi.

Bölgələrdə bu cür elektrik stansiyalarının yaradılması həm enerji təminatının gücləndirilməsində mühüm rol oynayır, həm də regionların inkişafına təkan verməklə əlavə iş yerlərinin açılmasına səbəb olur. Bu baxımdan Lerik rayonunda gücü 16,5 MVt olan elektrik stansiyası da əhəmiyyəti ilə seçilir.



Bildirildi ki, ölkənin cənub bölgəsinin elektrik enerjisi ilə təminatını yaxşılaşdırmaq məqsədilə "2009-2013-cü illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"na əsasən Lerikin elektrik təchizatı sistemində yenidənqurma işlərinin aparılması çərçivəsində rayonda gücü 16,5 MVt olan elektrik stansiyasının tikintisi həyata keçirilib. Elektrik stansiyası Lerik şəhər mərkəzindən bir kilometr cənubda, Cəngəmiran kəndində 3,6 hektar ərazidə yerləşir. Burada hər birinin gücü 3,3 MVt olan beş mühərrik-generator, həmçinin 35 kV və 10 kV-luq yarımstansiyalar quraşdırılıb. Bundan başqa, gücü 25 MVA olan 35/10 kV-luq blok transformatoru, hər birinin gücü 10 MVA olan 35/10 kV-luq iki güc transformatoru və hər birinin gücü 630 kVA olan 10/0,4 kV-luq iki ədəd xüsusi sərfiyyat transformatoru da layihənin komponentləri sırasındadır. Burada gücü 500 kVA olan dizel generatoru, rele mühafizəsi və avtomatika sistemləri, həcmi 20 kubmetr olan qəza yağ tutumu sistemi quraşdırılıb. Eyni zamanda, həcmi 250 kubmetr olan yanğınsöndürmə sisteminin yerüstü ehtiyat su çəni qoyulub, diametri 200 millimetr olan 6 kilometrlik qaz xətti, uzunluğu 25 kilometr ikidövrəli 35 KV gərginlikli elektrik verilişi, uzunluğu 16 kilometr olan 10 KV gərginlikli 8 elektrik verilişi xətləri xətti çəkilib.

Dövlətimizin başçısı elektrik stansiyasını işə saldı.

Bu layihə bölgənin enerji təminatı baxımından əhəmiyyəti ilə seçilir. Belə ki, regionun enerji təminatının keyfiyyət göstəricilərini yaxşılaşdıracaq stansiya ildə 75 milyon kilovat-saat elektrik enerjisi istehsal etmək imkanına malikdir. Müqayisə üçün deyək ki, bu, Lerik və Yardımlı rayonlarının elektrik enerjisinə tələbatından 40 faiz çoxdur. Bununla yanaşı, regionun ucqar nöqtələrində gərginlik səviyyəsinin normadan aşağı düşməsi hallarının qarşısı alınacaq. Stansiyanın faydalı iş əmsalı 45 faiz təşkil edir. Burada əsas yanacaq kimi qazdan istifadə olunur.

## Dövlət atributlarına ən yüksək səviyyədə göstərilən diqqətin bariz nümunəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lerikdə Bayraq Muzeyinin açılışında iştirak edib.

Dövlət başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, Bayraq Muzeyi və hündürlüyü 36 metr olan bayraq dirəyinin yerləşdiyi Dövlət Bayrağı Kompleksi Lerik şəhərinin mərkəzində, ümummilli lider Heydər Əliyevin adını daşıyan meydanın ərazisində yerləşir. Bu muzeyin inşasına 2018-ci ilin martında başlanılıb. Tikinti işləri bu ilin avqustunda başa çatdırılıb.





Bildirildi ki, muzeyin ümumi sahəsi 1200 kvadratmetr olan binası sərgi zalından, inzibati və yardımçı otaqlardan ibarətdir. Muzeyin sərgi zalında Azərbaycan xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, orta əsrlərdə xanlıqların istifadə etdiyi bayraqlar, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR və müstəqillik dövrlərində qəbul edilmiş gerblər, bayraqlar, Azərbaycanın konstitusiyaları, Silahlı Qüvvələrimizin müxtəlif qoşun birləşmələrinin geyim formaları, poçt markaları, orden və medallar nümayiş olunur.




Bölgələrdə Bayraq muzeylərinin və Bayraq meydanlarının yaradılması Azərbaycanın dövlət atributlarına ən yüksək səviyyədə göstərilən diqqətin bariz nümunəsidir. Belə muzeylərin yaradılması dövlət atributlarına olan sonsuz sevgini nümayiş etdirməklə yanaşı, gənc nəslin Azərbaycan bayrağına hörmət ruhunda, əsl vətənpərvər kimi tərbiyə olunmasına mühüm töhfə verir. Bununla yanaşı, bu işlər həm də Azərbaycan dövlətinin müstəqilliyini əks etdirən və hər bir vətəndaş üçün müqəddəs olan üçrəngli bayrağımıza göstərilən hörmət və ehtiramın təcəssümüdür. İndi Azərbaycan bayrağı ən nüfuzlu beynəlxalq təşkilatlar və mötəbər məclislərdə qürurla dalğalanır, dövlətimizi şərəflə təmsil edir.

## Heydər Əliyev Fondundan körpələrə növbəti töhfə

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuş 100 yerlik Lerik şəhər 2 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.





Azərbaycan Prezidenti uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi.

Uşaqların sosial müdafiəsinin gücləndirilməsi, onların sağlam və xoşbəxt böyüməsi bu gün dövlətimizin həyata keçirdiyi siyasətdə mühüm yer tutur. Respublikamızın bütün bölgələrində yeni körpələr evi-uşaq bağçalarının inşası, onların müasir avadanlıqla təchiz edilməsi bunun əyani təsdiqidir. Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına dövlət tərəfindən böyük dəstək verilir. Bu istiqamətdə həyata keçirilən Dövlət proqramları ilə yanaşı, Heydər Əliyev Fondu da bu sahəyə xüsusi töhfə verir. Fondun məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması ilə bağlı həyata keçirdiyi layihələri bu baxımdan çox mühüm rol oynayır. Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı uşaqların təlim-tərbiyəsinin, onların bilikli və savadlı yetişməsinin Fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etdiyini bir daha sübut edir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş bağçalardan biri də Lerik şəhər 2 saylı körpələr evi-uşaq bağçasıdır. Bu cür gözəl və hərtərəfli şəraiti olan körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi bir daha sübut edir ki, dövlətimizlə bərabər, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da gələcəyimiz olan uşaqlarla bağlı bütün məsələlərə xüsusi həssaslıqla yanaşır, onların sağlam və xoşbəxt böyüməsi üçün əlindən gələni əsirgəmir. Müasir görkəmi ilə seçilən belə müəssisələr həm də yerləşdiyi ərazinin gözəlliyini daha da artırır.



Bildirildi ki, bu uşaq müəssisənin inşasına 2015-ci ilin mayında başlanılıb. İnşaat işləri 2018-ci ilin mayında yekunlaşıb. İkimərtəbəli binada qrup, yataq, yemək otaqları və xidməti otaqlar var. Burada, eyni zamanda, musiqi və gimnastika, həmçinin kompüter otağı da balacaların ixtiyarına verilib. Müxtəlif qrupların fəaliyyət göstərəcəyi bağçada uşaqların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq, onların istedadlarını üzə çıxarmaq üçün hərtərəfli şərait yaradılıb. Otaqların hamısı zəruri avadanlıq və əyani vasitələrlə təchiz olunub. Körpələr evi-uşaq bağçasının ərazisində balacaların əylənməsi üçün meydança yaradılıb.

Müəssisədə 22 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub.

Bütün bunlar bir daha da göstərir ki, Heydər Əliyev Fondunun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb. Ümumilikdə, ölkədə son illərdə uşaqların sosial müdafiəsinin gücləndirilməsi və onların xoşbəxt böyümələri naminə olduqca mühüm layihələr icra edilib. Bunların arasında mövcud körpələr evi-uşaq bağçalarının əsaslı təmiri ilə yanaşı, yeni-yeni bu cür müasir müəssisələrin yaradılması vacib əhəmiyyət kəsb edir.





## Lerik şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər haqqında
# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində Lerik rayonunda sosialyönümlü bir sıra layihələr həyata keçirilmiş, əsas kapitala yönəldilən vəsait 140,2 dəfə, o cümlədən tikinti-quraşdırma işlərinə investisiyanın həcmi 180,6 dəfə artmış, 90 çarpayılıq Rayon Mərkəzi Xəstəxanası, Rayon Mədəniyyət Mərkəzi, Uşaq İncəsənət Məktəbi əsaslı təmir olunmuş, Dövlət Bayrağı Meydanı, "Uzunömürlülər" Muzeyi, əlil və şəhid ailələri üçün ümumilikdə 32 mənzilli 2 yaşayış binası inşa edilmiş, 50 ümumtəhsil məktəbi istifadəyə verilmişdir. Bundan başqa, Lerik şəhərinin su təchizatı sistemi və 12,6 MVt-lıq Lerik elektrik yarımstansiyası yenidən qurulmuş, yol-nəqliyyat infrastrukturu yaxşılaşdırılmış, istehsal və emal müəssisələri yaradılmış, 6 mindən çox yeni iş yeri açılmış, genişmiqyaslı abadlıq-quruculuq işləri görülmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Lerik şəhərində istismar müddəti başa çatmış ikimərtəbəli 8 mənzilli binada və 1932-ci ildə inşa edilmiş köhnə xəstəxana binasında yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə qərara alıram:

1. Lerik şəhərində istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədi ilə 48 mənzilli yaşayış binasının tikintisi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Lerik Rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2018-ci il.*

## Lerik rayonunun Orand kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında
# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Lerik rayonunun Orand kəndində 180 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2018-ci il.*

## Lənkəran-Lerik avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında
# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Son illərdə yağan aramsız yağıntılar nəticəsində uzunluğu 55 km olan Lənkəran-Lerik avtomobil yolunda çoxsaylı sürüşmə və uçqunlar baş vermiş, yolun bəzi hissələrində nəqliyyat vasitələrinin hərəkəti üçün real təhlükə yaranmışdır. Baş vermiş təbiət hadisələrinin yaratdığı fəsadları aradan qaldırmaq, avtomobil yolunun dayanıqlığını, yük və sərnişin daşınmasının təhlükəsizliyini gücləndirmək məqsədi ilə avtomobil yolunun yenidən qurulması zərurəti yaranmışdır.

Qeyd olunan istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Lənkəran-Lerik avtomobil yolunun yenidən qurulması işlərinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.84-cü bəndində göstərilmiş məbləğin 9,2 milyon (doqquz milyon iki yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2018-ci il.*

# 9 ayın yekunu fərəh doğurur

***2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrlə bağlı rayon icra hakimiyyəti başçısının hesabatına həsr olunmuş Şuranın geniş iclası keçirilib***

Lerik Rayon İcra Hakimiyyəti başçısı yanında rayon rəhbərliyinin, hüquq mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat rəhbərlərinin, ərazi icra nümayəndələri, bələdiyyə sədrləri, ağsaqqallar, gənclər və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasından irəli gələn vəzifələr və 2018-ci ilin doqquz ayında Lerik rayonunda görülmüş işlər, qarşıda duran vəzifələr" barədə Şuranın geniş iclası keçirilib.



Şura iclasını giriş nitqi ilə açan Lerik Rayon İcra Hakimiyyətinin başçısı **Rövşən Bağırov** Prezident cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycanda hesabat dövründə qarşıya qoyulan vəzifələrin uğurla və vaxtında icra edildiyini, dinamik inkişafın təmin olunduğunu, ölkəmizin əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşadığını diqqətə çatdırdı.



Ölkə başçısı tərəfindən həyata keçirilən uğurlu iqtisadi reformalar rayonumuzun da sosial-iqtisadi inkişafına ciddi təsir göstərmişdir. İnkişafımızın bariz nümunəsi möhtərəm Prezidentimiz İlham Əliyevin 15 oktyabr 2018-ci il tarixdə rayonumuza dördüncü tarixi səfəridir. Ölkə başçısının rayonumuzun iqtisadiyyatının yenilənməsinə, infrastrukturun qurulmasına, əhalinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına yönələn layihələrin açılışında iştirakı, ictimaiyyət nümayəndələri ilə görüşü, orada söylədiyi proqram xarakterli çıxışı, rayonumuzun gələcək inkişafı ilə bağlı imzaladığı Sərəncamlar bir daha Prezidentin hər bir bölgəyə, hər bir vətəndaşa diqqət və qayğı ilə yanaşmasını bir daha sübut etdi.

Cənab Prezidentin rayonumuza tarixi səfərindən sonra Lənkəran-Lerik avtomobil yolunun tikintisinə 9,2 milyon manat, Lerik şəhərində 48 mənzilli binanın tikintisinə 3 milyon manat və Orand kəndində məktəbin tikintisinə 1 milyon manat, cəmi 13,2 milyon manat vəsaitin ayrılması rayonumuzun gələcək inkişafından xəbər verir.

Bu inkişafın rayonumuzun da iqtisadiyyatına, əhalinin həyat şəraitinin yaxşılaşmasına təsirini bir daha diqqətə çatdırdı. Keçən 9 ay ərzində əvvəlki illərdə olduğu kimi rayonumuzda aparılan quruculuq-abadlıq işləri barədə məlumat verərək şəhər və kəndlərimizdə abadlıq işlərinin davam etdirildiyini bildirdi.

Rayon icra hakimiyyətinin başçısı bildirdi ki, 3158,91 hektar sahədən 6828,6 ton, keçən ilə nisbətən 178,5 ton çox taxıl və digər dənli-paxlalı məhsul tədarük edilmiş, 1655 hektar, keçən ilin müvafiq dövrünə nisbətən 927 hektar sahədə herik şumu aparılmış, 481 hektar sahədə buğda səpini həyata keçirilmişdir. Həmçinin 19 kənd inzibati ərazi dairəsi üzrə 27,0 hektar sahədə Virciniya" və "İmmuna" tütün sortları əkilmişdir. Hal-hazırda məhsulun yığımı və qurudulması işləri davam etdirilir.

Rayon icra hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Həbil Məlikov geniş məruzə ilə çıxış etdi.

Şura iclasında rayon mərkəzi xəstəxanasının baş həkimi **Mübariz Ağayev,** 52 nömrəli "Yol İstismarı" MMC-nin direktoru **Elxan Əliyev** və rayon gənclər və idman idarəsinin rəisi **Natiq İsaqov** çıxış edərək görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verdilər.

Şura iclasına yekun vuran rayon icra hakimiyyətinin başçısı bir daha Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 oktyabr 2018-ci il tarixdə rayonumuza tarixi səfərinin əhəmiyyətindən söhbət açaraq bu səfərin hər bir leriklinin qəlbində əbədi qalacağını qeyd etdi. Cənab Prezidentin iştirakı ilə açılışı həyat keçirilən Piran-Hamarat-Vıjaker avtomobil yolunun, 16,5 MVT-lıq elektrik stansiyasının, Lerik şəhərinə içməli suyun verilməsinin, Bayraq Muzeyi və Lerik şəhər 2 saylı körpələr evi - uşaq bağçasının rayon əhalisinə göstərdiyi diqqət və qayğının əyani təzahürü olduğunu bildirdi.

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə inkişafı ilə bağlı ölkə başçısının iştirakı ilə keçirilən iclasında qarşıya qoyulan vəzifələri, kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsi ilə bağlı həyata keçiriləcək tədbirləri diqqətə çatdırdı və icrası ilə bağlı aidiyyəti vəzifəli şəxslərə tapşırıq və tövsiyələrini verdi.

Sonra rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov ölkə Prezidenti cənab İlham Əliyevin bu il 31 iyul 2018-ci il tarixdə imzaladığı sərəncamla uzun illər dövlət qulluğunda səmərəli fəaliyyətinə görə rayon icra hakimiyyəti başçısının Osyodərə kənd ərazi icra nümayəndəsi Eminəli Həşimova "Dövlət qulluğunda fərqlənməyə görə" medalını və vəsiqəni təqdim etdi.

Şura iclasında qeyd olunan təkliflər və qarşıda duran vəzifələrlə bağlı müvafiq qərar və Azərbaycan Respublikasının Prezidentinə müraciət qəbul olundu.

# Piran kəndində vətəndaşlar təklif verdilər

Piran kəndində Piran, Zərigüməco və Qışlaq kəndindən olan vətəndaşlarla səyyar görüş-qəbulu keçirilmişdir.



Səyyar görüş-qəbulda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Dəyanət Abdullayev iştirak edirdi.

Lerik Rayon İcra Hakimiyyəti başçısı Rövşən Bağırov səyyar görüş-qəbulda iştirak edən vətəndaşları salamladı və bildirdi ki, cənab Prezidentin tapşırığına əsasən yerlərdə əhali ilə keçirilən səyyar görüş-qəbullar qrafikinə uyğun olaraq bu gün növbəti dəfə sizinlə Piran ərazisində görüşürük.

Görüş-qəbulların keçirilməsində əsas məqsəd bilavasitə yerlərdə olan problemləri öyrənmək və mövcud problemlərin aradan qaldırılmasına nail olmaqdır. Bu gün həm görülən işlər barədə sizi məlumatlandırmaq, həm də gələcəkdə görülməsi nəzərdə tutulan işlərdə sizin də fikir və təkliflərinizi öyrənməkdir. Aidiyyəti idarə, hüquq mühafizə orqanlarının rəhbərləri də burada iştirak edirlər. Ona görə də sizi narahat edən problemləri səsləndirin, rəy və təkliflərinizi bildirin.



Cənab Prezident İlham Əliyevin yürütdüyü məntiqli düşünülmüş siyasəti nəticəsində ölkəmizin gündən-günə inkişaf etdiyini vurğulayan natiq uğurla icra edilən Dövlət Proqramları nəticəsində rayonumuzda görülən işlər barədə məlumat verdi.

Səyyar görüş-qəbulda çıxış edən vətəndaşlardan Əbutalıb Cəbiyev, Afət Quliyeva, Mirdamət Hümbətov, Mirağa Piriyev, Aydın Ağayev və digərləri çıxış edərək görülən işlərə görə minnətdarlıqlarını bildirdilər və ərazidə içməli su probleminin həllinə, Qışlaq kəndinin qazlaşdırılmasına və internet şəbəkəsinə qoşulmasına, Piran kəndində piyada körpüsünün tikintisinə, Piran kəndi ərazisindən axan çayda sahil-bərkitmə işlərinin aparılmasına, bəndin tikilməsinə, Lənkəran-Lerik avtomobil yolunun Piran kəndindən keçən hissəsində piyada səkisinin salınmasına, ərazidə elektrik xətlərinin təmirinə və digər problemlərin həllinə köməklik göstərilməsini xahiş etdilər.

Səyyar görüş-qəbulda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Dəyanət Abdullayev çıxış edərək görüş iştirakçılarını salamladı. Bildirdi ki, görüşdə aktivlik etdiyinizə görə sizlərə təşəkkür edirəm. Sizlər tərəfdən qaldırılan problemlərin əksəriyyəti ictimai məsələlərdir. Cənab Prezidentin qeyd etdiyi kimi ictimai nəzarətin güclü olması vətəndaşların rifah halının daha da yaxşılaşmasına və respublikamızın inkişafına öz töhfəsini verir. Lerik rayonunda olduğu kimi, bu ərazidə də böyük işlər görüldüyünü, ərazinin 2 kəndinə qaz xətti çəkildiyini, yeni məktəb binalarının, həkim məntəqəsinin tikildiyini və avtomobil yollarının asfaltlandığını qeyd etdi. Bildirdi ki, qaldırılan problemlərin əksəriyyətinin həllinə nail olunmaqdan ötrü müvafiq icra hakimiyyəti orqanlarına müraciət etməklə həllinə nail olunacaqdır.

Səyyar görüş-qəbulda rayon icra hakimiyyətinin başçısı vətəndaşlar tərəfindən verilmiş təklif və qaldırılan problemlərin icrasına nail olmaq məqsədilə görüləcək tədbirləri qeyd etdi, aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verdi.

# Beynəlxalq Müəllimlər Günü münasibəti ilə ümumrayon tədbiri

Beynəlxalq Müəllimlər Günü münasibəti ilə ümumrayon tədbiri keçirilmişdir.



Lerik RTŞ-nin müdiri Zöhrab Salayev əlamətdar gün münasibəti ilə təhsil işçilərini təbrik etdi, xoş arzularını çatdırdı. Son illər cənab Prezidentin diqqət və qayğısı ilə rayonda bir çox yeni məktəb binalarının tikildiyini, əsaslı təmir olunduğunu, məktəblərin ən müasir avadanlıq və ləvazimatla təchiz edildiyini qeyd etdi.

Tədbirdə rayon təhsil şöbəsinin aparıcı məsləhətçisi, qabaqcıl təhsil işçisi Hüseynbala Əliyev, Lerik şəhər 1 nömrəli texniki fənlər təmayüllü liseyin direktoru Gültəkin Şıxəliyeva, Şingədulan kənd tam orta məktəbinin direktoru Xansayad Əskərov, Lerik şəhər 1 nömrəli texniki fənlər təmayüllü liseyin müəllimi Zakir Vəliyev, Lerik şəhər 2 nömrəli tam orta məktəbinin müəllimi Hacıbaba Mirzəyev, Gürdəsər kənd tam orta məktəbinin müəlimi Vahid Cəbrayılov çıxış edərək Beynəlxalq Müəllimlər Günü münasibəti ilə təbriklərini çatdırdılar.



Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov Beynəlxalq Müəllimlər Günü münasibəti ilə tədbir iştirakçılarının timsalında rayonun bütün müəllimlərini təbrik etdi, onlara fəaliyyətində uğurlar arzuladı. Son illərdə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə respublikanın təhsil işçilərinin medallarla təltif edilməsinin, onlara fəxri adların verilməsinin, dövlət başçısının bütün sahələrə olduğu kimi, təhsilin inkişafına göstərdiyi diqqət və qayğısının bariz nümunəsi olduğunu vurğuladı. Cənab Prezidentin 2018-ci il 4 oktyabr tarixli Sərəncamı ilə Nuravud kənd tam orta məktəbinin müəllimi Liftiyev Rasim Şahab oğlunun "Tərəqqi" medalı ilə, Təhsil Nazirliyinin əmri ilə Lerik şəhər inteqrasiya təlimli internat tipli gimnaziyasının direktoru Asəf Bədəlovun, Gürdəsər kənd tam orta məktəbinin müəllimi Vahid Cəbrayılovun döş nişanı ilə təltif olunması ilə bağlı təbriklərini çatdırdı.

Təhsildə keyfiyyətin yüksəldilməsində, gənc nəslin təlim-tərbiyəsi sahəsində səmərəli fəaliyyətinə görə və Beynəlxalq Müəllimlər Günü münasibəti ilə Lerik Rayon İcra Hakimiyyətinin və rayon təhsil şöbəsinin təhsil işçilərinə Fəxri fərmanları təqdim edildi.

# Ailə dəyərlərini qoruyaq



Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yardımı ilə Kimsəsiz və Aztəminatlı Ailələrin Uşaqlarına Sosial - Mənəvi Dəstək İctimai Birliyi Lerik Rayon Heydər Əliyev Mərkəzində "Regionlarda ailə dəyərlərinin qorunması" mövzusunda dəyirmi masa keçirmişdir.

Tədbiri giriş sözü ilə layihə rəhbəri Təranə Əhməd açaraq müzakirə olunan mövzunun əsas mahiyyəti - ailələrdə boşanmaların artması tendensiyalarını öyrənmək və səbəblərini təhlil etmək, ailə ehtiyaclarını dəyərləndirmək, onlara psixoloji və hüquqi dəstək olmaq, bu istiqamətdə maarifləndirmə işləri aparmaq barədə tədbir iştirakçılarına ətraflı məlumat verdi. Layihənin psixoloqu Firuzə Dadaşova auditoriyaya toplaşanlarla fikir mübadiləsi apardı, verilən sualları cavablandırdı. Daha sonra rayon İcra Hakimiyyətinin məsul işçisi Babaxan Rufullayev, rayon polis şöbəsinin əməkdaşı Ülfət Novruzov, dini icma rəhbəri Rauf Əliyev, Mərkəzi Kitabxanan sisteminin əməkdaşı Xoşavaz Feyziyeva, rayon Gənclər və İdman İdarəsinin rəisi Natiq İsaqov və başqaları çıxış edərək ailə dəyərlərinin qorunması istiqamətində görülən işlərdən, bu sahədə qarşıya çıxan problemlərin həllindən söhbət açdılar. Dəyirmi masada müzakirəyə qoşulanlar ailə dəyərləri ilə bağlı maraqlı təkliflər irəli sürdülər və bu layihənin davamlılığının vacibliyini bildirdilər.

***Nübar Cəfərli,***
***Heydər Əliyev Mərkəzinin əməkdaşı.***

# Hər əsgər hünəri bir qələbədir



Torpaqlarımızın bir hissəsinin düşmən işğalı altında olması, eyni zamanda, ölkəmizin yerləşdiyi tarixi, siyasi, coğrafi mövqeyi daim bizdən daha yüksək hərbi-vətənpərvərlik əhval-ruhiyyədə olmağımızı tələb edir. Bir çox ölkədə orduda xidmət etmək gəncin vətəndaşlıq borcudur. Ancaq Azərbaycan övladının borcu başqa ölkələrin gənclərinə nisbətən bir neçə qat artıqdır. Çünki torpaqlarımız düşmən tərəfindən işğal edilib, ölkəmizin ərazi bütövlüyünə təcavüz olunub, xalqımızın min illər boyu yaratdığı və zənginləşdirdiyi dəyərlər talan edilib, dağıdılıb. Xəyanətkarlığın, vandalizmin nəticələrini aradan qaldırmaq, ərazi bütövlüyümüzü bərpa etmək gənc vətənpərvərlərin, cəsur və qorxmaz əsgərlərin öhdəsinə düşür. Bu baxımdan gənclər arasında hərbi xidmətə hörmət və diqqət daim diqqət mərkəzində saxlanılır, hər bir gəncin orduya xidmətə getməsi onun ailəsində əlamətdar hadisəyə çevrilir.

Həmişə olduğu kimi 2018-ci ilin oktyabr çağırşçılarının Milli Orduya yola salınması uğurla, mütəşəkkilliklə keçir, gənclər hərbi hissələrə həvəslə yola düşürlər. ŞHXGDX-nın çağırış bölməsinin müfəttişi İlqar Mirələmov sevincini belə ifadə edir:

Lerikdən yola düşən çağırışçılar Azərbaycanın ən müasir və güclü ordu sıralarına getməkdən qürur hissi duyurlar. Onlar gəncliyin ən qaynar, fərəhli çağlarını Milli Orduda keçirirlər. Əsgərlərimiz vətənə, dövlətimiz əsgərlərimizə güvənir. Cəsur və igid əsgərlərimiz, ordumuz düşmən təxribatının qarşısını almağa, torpaqlarımızı azad etməyə qadirdir. Lerikdən əsgəri xidmətə gedən müdafiəçilər həmişə vətənpərvərlik nümunəsi göstəriblər.

Asim Mütəllimov, Altay Mövlanov, Emin Əşrəfov, Əli Liftiyev, Murad Məlikov və başqa çağırışı gənclər iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun heykəli önündən sürücü Ramiz Qasımovun idarə etdiyi rahat maşına əyləşərək xidmət ünvanına yola düşürlər. Onlarda böyük vətənpərvərlik ruhu var, Silahli Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bilavasitə rəhbərliyi ilə istənilən vəzifəni icra etməyə hazırdırlar.

Bəli, Milli Ordumuz getdikcə möhkəmlənir, qüdrətlənir, sarsılmaz gücə malik olur. Müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda candan keçməyə hazır olan gənc əsgərlərin inamı, Ali Baş Komandanın yürütdüyü siyasət bunu deməyə əsas verir.

***Pərviz AĞAXANLI,***
***SHXÇDX-nin Lerik rayon şöbəsinin müfəttişi***

# Təbrik edirik!

## Zirvələrə aparan yol



Ulu öndər-elmin, təhsilin və mədəniyyətin himayədarı demişdir: «Mən dünyada müəllimdən yüksək ad tanımıram». Ulu öndərin yüksək dəyər verdiyi müəllimliyi özünə peşə seçən Hüseynbala Əliyevin dünyaya qədəm qoymasının 60 ili tamam olur.

Hüseynbala Əliyev 1958-ci ildə qulluqçu ailəsində anadan olmuşdur. BDU-nun tarix və ictimaiyyət fakültəsini bitirmiş, Lerik şəhər 1 saylı məktəbdə ixtisası üzrə müəllim işləmişdir. O, əmək fəaliyyətinin 30 ili ərzində müxtəlif vəzifələrdə-Lerik Rayon İcra Hamimiyyətində ictimai təşkilatlar və siyasi partiyalarla iş şöbəsində, Lerik rayon xalq təhsili şöbəsində müdir müavini, sonra təhsil şöbəsinin müdiri, Lerik peşə məktəbinin direktoru, Əmlak Komitəsinin özəlləşdirmə şöbəsinin Lerik rayonu üzrə məsul işçisi vəzifələrində çalışmışdır. Hazırda Lerik rayon Təhsil Şöbəsində aparıcı məsləhətçi işləyir.

Pedaqoji sahədə çalışdığı müddətdə millətin, gələcəyinin qarantı olan yeniyetmə və gənc nəslin inkişafına gərgin yaradıcı əmək sərf etmiş, müasir təlim prosesində qabaqcıl üsul və metodların tətbiqinə çalışmış, şagirdin dərketmə qabiliyyətinin inkişaf etdirilməsi, onun dünyaya bir şəxsiyyət kimi inteqrasiya olunması, vətənpərvərlik, dövlətçiliyə məhəbbət ruhunda tərbiyə olunması bilik və bacarığını, təcrübəsini əsirgəməmişdir.

Dəyərli ziyalı, gözəl natiq, fəal ictimaiyyətçi, tariximizin bilicisi Hüseynbala Əliyev Lerik rayon Sovetinin deputatı seçilmiş, YAP III qurultayının, Azərbaycan müəllimləri XII, XIII qurultayının nümayəndəsi olmuşdur. YAP rayon şurasının üzvüdür. O, səmərəli və yaradıcı işinə görə, ictimai-siyasi fəaliyyətinə görə Fəxri fərmanlara təltif olunmuş, «Qabaqcıl təhsil işçisi» adına layiq görülmüşdür. Təhsil problemlərinə dair 15-ə yaxın çap olunmuş elmi məqalənin, bir kitabın müəllifidir.

İnsanlara sevgi nümunəsi olan, səmimi, ədalətli, təvazökar, fədakar, vətənsevər ziyalı, yurd təəssübkeşini 60 illik yubileyi ilə əlaqədar onu səmimi qəlbdən təbrik edir, ona uzun ömür, sağlamlıq diləyirik.

***«Lerik» qəzetinin redaksiyası***

# "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda keçirilən ikigünlük seminar-müşavirə başa çatıb



Oktyabrın 18-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Lerik Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda keçirilən ikigünlük seminar-müşavirəbaşa çatıb.

Dini icma sədrləri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirəni açan RİH başçısının müavini Arzu Vəlimməmmədova rayondakı dini durum barədə məlumat verib. Lerikdə 26 dini qurumun Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alındığını deyən A.Vəlimmədova icmaların fəaliyyəti üçün yaradılan şəraitdən danışıb. Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün imzaladığı Sərəncamın dini icmaların cəmiyyətə inteqrasiyasında mühüm rol oynadığını bildirib.

İştirakçıları Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, bu gün Azərbaycan təkcə sosial-iqtisadi uğurlarına, hərbi-siyasi potensialına görə deyil, eyni zamanda, vicdan azadlığının təmin edilməsinə, yüzilliklər ərzində formalaşmış tolerantlıq ənənələrinin qorunmasına görə regionda ön sıralarda yer alır. Ölkədə ümummilli Liderimiz Heydər Əliyevin formalaşdırdığı dövlət-din siyasətinə uyğun olaraq dini konfessiyalar arasında dözümlülük mühitinin inkişaf etdirilməsi sahəsində dönüş yaranıb, dövlətlə dini qurumların münasibəti yeni mərhələyə qədəm qoyub.

S.Salahlı vurğulayıb ki, Azərbaycan əhalisinin tərkibi həm etnik, həm dini baxımdan zəngindir. Ölkəmizdə bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri formalaşıb, milli, irqi və dini zəmində heç bir ayrı-seçkilik faktı qeydə alınmayıb.

Dini radikalizmə qarşı mübarizədən də danışan sədrin birinci müavini bu sahədə din xadimlərinin üzərinə böyük vəzifə və məsuliyyət düşdüyünü deyib. O, bu gün hansı dinə mənsubluğundan asılı olmayaraq din xadimlərinin geniş təbliğat imkanına malik olduqlarını, cəmiyyətdə dini dünyagörüşünün formalaşmasında mənəvi məsuliyyət daşıdıqlarını bildirib.

Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi İlham Əliyev dinə dövlət qayğısından bəhs edib. Din xadimlərinin fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını, dövlət tərəfindən mütəmadi olaraq dini maarifləndirmə işinin təşkilinin daha da yaxşılaşdırılması məqsədilə maliyyə vəsaitinin ayrıldığını deyib. Seminar-müşavirənin birinci günü müzakirələrlə yekunlaşıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Lerik Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusundakı ikigünlük seminar-müşavirə oktyabrın 19-da öz işini davam etdirib.

Gənclər və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan RİH başçısının müavini Arzu Vəliməmmədova gənclərin yad dini ideologiyaların təsirindən qorunmasında dini maarifləndirmə tədbirlərinin mühüm rola malik olduğunu bildirib, onların milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunmasının vacibliyini diqqətə çatdırıb.



DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxışında dini radikalizm və onun fəsadları haqqında danışıb. Bildirib ki, Azərbaycanda hökm sürən multikultural və tolerant mühitin mövcudluğunu istəməyən bəzi qüvvələr ölkəmizdə xalqımızın milli-mənəvi və dini dəyərlərinə yad olan ideologiyaları təbliğ edərək dini və ictimai sabitliyi pozmağa cəhd edirlər. Onların əsas hədəfinin gənclər olduğunu vurğulayan birinci müavin gənclərin düzgün dini biliklərlə məlumatlandırılmasının və onların elmə-təhsilə yiyələnmələrinin dini radikal qrupların təsirindən qorunmaları baxımından olduqca əhəmiyyətli olduğunu qeyd edib. S.Salahlı bu işdə məktəb müəllimlərinin və valideynlərin üzərinə mühüm vəzifələr düşdüyünü diqqətə çatdırıb.

Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri vəzifəsini icra edən Cahandar Əlifzadə dini radikal qrupların təbliğat metodlarından danışıb. Bildirib ki, dini radikalizm və ekstremizmə qarşı mübarizədə milli-mənəvi dəyərlərimizin təbliğinin böyük rolu var. Şöbə müdiri, eyni zamanda məzhəb ayrı-seçkiliyinə qarşı vəhdət və həmrəyliyin əhəmiyyətindən bəhs edib.

Daha sonra DQİDK-nın sifarişi ilə ərsəyə gəlmiş, dini radikalizm və terrorizmin fəsadlarından bəhs edən "Üfüqdəki gələcək" sənədli filmi nümayiş etdirilib, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Həqiqəti uca tutan insan



Tofiq Bədəovun ünvanına təbrik ünvanlayanda, ilk növbədə onun xarakter cizgiləri, cəmiyyətdəki mövqeyi, bir həkim kimi fəaliyyəti bunları deməyə sövq etdi:

Tofiq Bədəlovu fərqləndirən cəhətlər hansılardır? İlk növbədə xarkterinin özünəməxsus olması. O, sadə və təvazökardır, səmimi insan, dostluğa sədaqətlidir. Natiqlik bacarığına malikdir, söz ehtiyatı kifayət qədərdir. Həqiqəti deməyi bacarır, haqqı-ədaləti həmişə uca tutur. Həmsöhbətlərinin hiss və duyğularına təsir etməyi bacarır.

Yubilyarın yaşadığı cəmiyyətdə mövqeyi qəbuledilənd ir. Həmişə ictimaiyyət arasındadır. Yaxşıya yaxşı deməyi, pisi islah etməyi bacarır, sözü kəsərli deyir. Həmyaşıdları ilə hər gün görüşür, fikir mübadiləsi edir. Azərbaycanın, onun timsalında Lerikin inkişafı, Prezidentin diqqət və qayğısı, ölkəmizin qüdrətlənməsi Tofiq Bədəlovun sonsuz sevincidir.

Tofiq Bədəlov 1968-ci ildə N.Nərimanov adına Tibb İnstitutunu bitirdikdən sonra Lerik rayon Sanitar-Epidemiologiya Stansiyasında baş həkim təyin olunub və 32 il orada çalışıb. 2003-cü ildə təqaüdə çıxıb. Onun SES-in baş həkim işlədiyi dövrdə Lerik qəsəbəsi (indiki şəhər) nümunəvi sanitariya səliqəsinə və abadlığa görə qalib çıxaraq dəfələrlə Azərbaycanın keçici qırmızı bayraqldarına layiq görülüb. Tofiq Bədəlov dəfələrlə Lerik qəsəbə Sovetinin deputatı olub, raykomun plenum üzvü seçilib. Səhiyyə Nazirliyinin və Lerik Rayon rəhbəliyinin Fəxri fərmanlarına layiq görülüb.

Yaxınlarda Tofiq Bədəlovun təşəbbüsü ilə 86-cı qrup tələbələrinin iştirakı ilə institutu bitirməyin 25 illiyi qeyd edilmişdir. Tələbə yoldaşları Tofiq Bədəlovu 70 illiyi münasibətilə təbrik edir, ona ən xoş arzu və istəklərini bildirir, başlıcası sağlam həyat arzulayırlar.

**Bu təbrikə «Lerik» qəzetinin yaradıcı əməkdaşları da qoşulur.**

# Unudulmayan insan



Vaxtsız və amansız ölüm aramızdan gözəl bir insanı düz 24 il bundan əvvəl apardı. Deyirlər ki, yaxşı adamlar dünyadan tez köçür. Doğrudan da bu, beləymiş.

Əli müəllim gözəl insan, yüksək ixtisaslı mühəndis, bacarıqlı təşkilatçı, müdrik rəhbər, səmimi yoldaş idi. Öz həyatını Bakı «Çinar» zavodunun inkişafına, əmək kollektivinin maddi rafahının yaxşılaşmasına həsr etmiş bu insan heç vaxt ağlına belə gətirmədiyi bir nankora rast gələcəyini belə düşünmürdü.

Haqqında söhbət açdığım insan «Çinar» İstehsal Birliyinin baş direktoru işləmiş Əli Misirxan oğlu Atayev idi. Əli Atayevin oktyabr ayında 70 yaşı tamam oldu. Yaşasaydı 70 illiyini təntənə ilə qeyd edərdik. Təəssüflər olsun ki, o, bu 70 ilin yalnız 45-ni yaşaya bildi. Ailə üzvləri, dostlar, həmkarları böyük insanın 50 və 60 illiyini onsuz keçirməli oldular. İndi də70 illiyini onsuz keçirməli olduq. Onsuzmu? Bəlkə də yox!

Vətənin, xalqın, millətin faciəsi ağır, üzücü bir yük olub, sanki onun kövrək və həssas ürəyindən asılmışdı. Vətən dediyimiz Azərbaycanımızı da onun kimi oğullar dağılmağa, parçalanmağa qoymurdu. Bu isə həm xarici, həm də daxili düşmənlərimizi narahat edirdi.

Tez-tez müxtəlif xarici ölkələrdən - İtaliyadan, Türkiyədən, Çexiyadan, Misidən, Livandan, Avstraliyadan, Fransadan səsi-sorağı gəlirdi. Bu, adi turist səfərləri deyildi. O, müxtəlif xarici firmalarla, şirkətlərlə danışıqlar aparırdı, zavod üçün dünya standartlarına cavab verə biləcək texnika, avadanlıqlar alırdı, müqavilələr bağlayırdı. Hər bir fəhləyə, mühəndisə qulluqçuya atalıq qayğısı ilə yanaşırdı. Azərbaycanın şöhrətini yaxın-uzaq ölkələrə daha da yaymaq üçün gecələr də şirin yuxusundan uzaq düşürdü. Necə olursa-olsun, dünya bazarında rəqabət aparmaq, fəhlə və qulluqçuların sosial-məişət problemlərini həll etmək, dövlətin büdcəsinə daha çox gəlir gətirmək onun ən böyük arzusu və məqsədi idi.

Sanki özünü unutmuşdu Əli müəllim. Bütün güc və qüvvəsini, enerjisini, bacarığını rəhbərlik etdiyi müəssisədə əsirgəmirdi. O, bir növ zavod üçün, zavodun fəhlə və qulluqçuları üçün canını girov qoymuşdur. Elə bu yolda da canından keçməli oldu. Ömrünün-gününü əritdiyi, gecə-gündüzünü verdiyi müəssisədə də ölümlə üz-üzə gəldi.

Əli Atayevin vaxtsız və faciəli ölümü, ilk növbədə, soyuducular zavodunun «bel sutununu» sındırdı, sanki bir müəssisənin bərəkəti göyə çəkildi. Çünki 3 min nəfərlik böyük bir kollektivin üzərində, sanki tanrının kölgəsi çəkilib yox olmuşdu.

Əli müəllimin ölümü barmaqla sayıla biləcək xeyriyyəçilərdən birinin azalması demək idi. Əli Atayev kimi oğulların ömrü tariximizin bir parçasıdır. Onlar bugünkü Azərbaycan tarixində parlaq, sönməz, silinməz bir iz qoyub getdilər.

Əli Atayev Azərbaycanın sınanmış, sınaqdan çıxmış oğlu idi. O, həm də xeyriyyəçi idi. Yüzlərlə adamın ümid yerinə, inam yerinə çevrilmişdi. O əsl vətəndaş, qayğıkeş bir adam kimi tanınmışdı.



Əli müəllim deyən-gülən, şadlanmağı bacaran insan idi. Onun tütdüğü vəzifə böyük olsa da, özünü həmişə sadə aparırdı. Onun bir üzü, bir sifəti var idi.

Əli müəllimin əziz xatirəsi həmişə bizim qəlbimizdə yaşayacaq. Onun nurlu siması, açıq-aydın gözləri heç vaxt yadımdan çıxmır. Əli Atayev bir insan olaraq insanların başı üstündə bir günəş olub yanır...

***Hüseynağa ŞAHİYEV,***
***Lerik şəhəri***

# Vəlixan Bədəlov-65



Vəlixan Böyükxan oğlu Bədəlov dünyada öz uzunömürlüləri ilə planetimizə səs salan, ən qədim yaşayış məskəni olan Lerik şəhərində dünyaya gəlmişdir. Ali təhsilli həkim-pediatr kimi Lerikdə işləməyə başlamışdır. Öz bacarığı, elmi təcrübəsi ilə körpə uşaqlara sağlam həyat bəxş etmiş, valideynləri hədsiz sevindirmişdir. Hər dəfə uşaqların ata-analarından, baba və nəvələrindən eşitdiyi "sağ ol" sözlərini əməyinə verilən ən yüksək mükafat kimi qəbul edib. Peşə borcunu yerinə yetirdikdən sonra rahatlıq tapıb, həkim peşəsindən zövq alıb.

Vəlixan Bədəlov Lerik Rayon Uşaq xəstəxanasında uzun müddət işlədiyi dövrdə həmişə işinə ciddi yanaşmış, işdə məsuliyyət hiss etmiş, xəstə uşaqların müalicəsində uğurlar qazanmış, tibbi yenilikləri öyrənmişdir. Xəstə sağalanadək narahatlıq keçirmiş, valideynlərinə sevinc bəxş etmişdir. Vəlixan Bədəlov həkim işlədiyi son illərdə Lerik RMX-nın uşaq xəstəlikləti şöbəsinin müdirirdir. Təcrübəli həkim, duyğulu insan, sədaqətli dost, mehriban ailə sahibi Vəlixan Bədəlovun anadan olmasının 65 ili tamam olur. Yubuley münasibətilə onu təbrik edir, ən xoş arzularımızı bildiririk.

***Sizi Allah qorusun.***

## Tütün zərərlidir!

Bu barədə «Tütün məmulatlarının istifadəsinin Respublikanın 2017-ci il 01 dekabr tarixli 887- VQ nömrəli Qanununun tətbiqi barədə, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 05 iyul tarixli 161 nömrəli Fərmanı icrası üzrə Lerik rayon Gigiyena və Epidemiologiya Mərkəzi Tədbirlər Planı» hazırlamışdır. Həmin tədbirlər planına əsasən rübdə 1 dəfə rayon qəzetində tütündən istifadənin mənfi təsirləri barədə xəbərdaredici, maarifləndirici və tərbiyəvi mövzuda məqalələr dərc edilməlidir.

Təhsil işçilərinin rəhbərliyi və tibb işçiləri tərəfindən uşaqlar arasında tütün tüstüsünün zərərli təsirləri barədə maarifləndirici və tərbiyəvi təbliğat işlərinin aparılmasına metodik köməkliyin göstərilməsi məqsədilə seminar-müşavirələr keçirilməlidir.

Dövlət tabeçiliyində olan bütün təhsil və tərbiyə müəssisələrində, habelə onların ərazilərində səhiyyə və tibbi reablitasiya müəssisələrində, onların ərazilərində hamının yaxşı görə biləcəyi lövhələrdə «Tütün çəkmək qadağandır!» yazısı və ya işarəsi olan lövhələrdə təmin olunmayan müəssisələrin cavabdeh şəxsləri haqqında inzibati xətalar məcəlləsinin 212.2 maddəsinə əsasən inzibati tədbirlər görülməlidir. Bu tədbirlər rayon təhsil şöbəsində, rayonun idarə, müəssisə, təşkilatlarında, xidmət müəssisələrində, ümumi istifadədə olan yaşayış yerlərində, mədəniyyət obyektlərində həyata keçirilməlidir.

Bu mövzuda yazılarımızı davam etdirəcəyik.

# Hamı bilməlidir

## Siqaret çəkmənin sağlamlığa zərəri

Siqaret çəkməklə, siz nəinki özünüzü, həm də öz yaxınlarınızı, hətta öz uşaqlarınızı təhlükə qarşısında qoyursunuz.

İkincili tüstü və ya passiv siqaret çəkmə ürək xəstəliklərinin, ağciyər xərçənginin, astma və bronxitin yaranmasına səbəb ola bilər.

Tütünün tüstüsü ilk növbədə tənəffüs orqanlarınızı zədələyir. Qırtlağın xərçəngindən ölüm hallarının 98%-i, ağciyər xərçəngindən ölümün 96%-i, xroniki bronxit və ağciyər emfizemasından ölümün 75%-i siqaret çəkmə ilə əlaqələndirilir.

Tütün tüstüsünün tərkibinə 4000-dən artıq kimyəvi birləşmə daxildir, hansı ki, onlardan 40-dan çoxu xərçəng törədir. Həmçinin, yüzlərlə zərərli maddələr var ki, bunlara nikotin, sianidlər, arsen, formaldehid, CO2, CO, sinil turşusu və s. aiddir.

Hər siqaret çəkəndən sonra ürəyin işemik xəstəliyi, qan təzyiqi əmələ gəlir, qanla xolesterinin miqdarı artır. Siqaret çəkmək periferik damarlarda ateroskleroz xəstəliyinin inkişaf riskini artırır. Ürəyin işemik xəstəliyindən ölən insanların 25%-i siqaret çəkənlərdir.

Siqaret çəkmək ən çox hamilə qadınlara ziyandır. Bu, az çəkili və zəif uşaqların doğulmasına səbəb olur. Süd verən anaların siqaret çəkməsi uşhaqlar arasında xəstələnmə və ilk illərdə ölüm hallarını artırır. Hamiləlik zamanı mütəmadi siqaret çəkdikdə döl xroniki oksigen çatışmazlığı vəziyyətində olur və nəticədə bədəndaxili inkişaf zəifləyir.



***Nəciməddin KƏRİMOV,***
***həkim-gigiyenist***

# "Lerik"də oxuyun:

- ***Dünyada ən nadir ağac Qaraçöhrə Lerikdə bitir?***
- ***Yolsuz həyat yoxdur. 52 nömrəli yol-isrismarı MMC-nin direktoru Elxan Əliyevlə müsahibə.***
- ***Necəsən, Aşıq Əlifağa Əmioğlu?***
- ***Sən kimsən? Bağa qınından çıxdı, qının bəyənmədi...***


Redaktor
İdris ŞÜKÜRLÜ

Təsisçilər:
Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası
H/№AZ05AIIB33080019447400220174
VÖEN:6300050071

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Nizami küçəsi
Tel: (070) 520-73-91

Qəzet "Son Dakika" MMS mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Tiraj: 500
Sifariş: 504


